Azərbaycan Respublikası
Ekologiya və Təbii Sərvətlər
Nazirliyinin «01» *noyabr*
2007-ci il tarixli 598 nömrəli
Əmri ilə təsdiq edilmişdir.

# Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi əməkdaşlarının peşə etikası və etik davranış

# QAYDALARI

## I. Ümumi müddəalar

1.1. Bu Qaydalar ekologiya və təbii sərvətlər sahəsində dövlət qulluğunda olan vəzifəli şəxslərin və digər işçilərin (bundan sonra – «nazirlik əməkdaşı» adlanacaq) sədaqətə, səyə, qərəzsizliyə, aşkarlığa, loyallığa və nəzakətlilik meyarlarına əsaslanan ümumi davranış qaydalarını müəyyən edir.

1.2. Bu Qaydaların müddəaları, nazirlik əməkdaşlarının yerinə yetirdikləri xidməti vəzifələrinin icrası zamanı ictimai mənafeyin üstünlüyünü təmin etməyi, təsirdən azad olmağı, etibarlılığı və xidmət şərəfini qorumağa imkan verməyən halların yaranmasının qarşısını almağı nəzərdə tutur.

1.3. Bu Qaydaların müddəaları əsasən etik əhəmiyyət kəsb edir.

## II. Şərəfinin və peşə nüfuzunun qorunması

2.1. Nazirlik əməkdaşı elə davranmalıdır ki, obyektiv olaraq vətəndaşların etimadını qazansın. Bu səbəbdən o, həmçinin ona etibar edilən tapşırıqların yerinə yetirilməsi çərçivəsində yalnız dövlət və ictimai mənafelərə uyğun hərəkət etməlidir.

2.2. Şərəfini və peşə nüfuzunu qorumaq məqsədilə nazirlik əməkdaşı xidməti vəzifələrinin yerinə yetirilməsi ilə bağlı, xüsusi maraqlara malik hər hansı bir şəxsdən adi nəzakət qaydalarından kənara çıxan heç bir fayda əldə etməməlidir.

2.3. Vətəndaşlarla xidməti münasibətlərdə nazirlik əməkdaşı həmişə nəzakətli olmalı, bununla belə, lazımi qətiyyət göstərməlidir.

2.4. Nazirlik əməkdaşı onu nüfuzdan sala bilən davranışa və ya şəraitin yaradılmasına yol verməməlidir. Bununla əlaqədar olaraq o aşağıdakıları etməlidir:

- xidməti vəzifələri ilə əlaqədar olan məsələlər üzrə göstərdiyi köməyin və ya verdiyi məsləhətin müqabilində haqq və ya mükafat almaqdan çəkinməlidir;

- qulluq etdiyi orqanın adına xələl gətirə bilən yerlərdən və şəxslərlə əlaqədən çəkinməlidir;

- xüsusi zərurət olmadıqda, özünün ödəmə imkanlarından artıq məbləğlərdə borclarının yaranmasına yol verməməlidir;

- öz ailə üzvlərinə və ya onunla bir yerdə yaşayan digər şəxslərə, yaxud dostlarına münasibətdə belə, ictimai və şəxsi maraqların toqquşduğu hallarda, ictimai mənafeyi üstün tutmalıdır.

2.5. Nazirlik əməkdaşı onun özünün və ya başqalarının xidməti fəaliyyətinə aid olan qərar və hərəkətlərə dair ictimaiyyət arasında, əgər buna müvəkkil edilməmişdirsə, öz üzərinə öhdəliklər götürməməli və ya vədlər verməməlidir.

## III. Maddi və qeyri-maddi nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi

**3.1.** Nazirlik əməkdaşının qanunsuz olaraq maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə yönəlmiş hərəkətlər (hərəkətsizlik) etməsi və ya qərarlar qəbul etməsi qadağandır.

3.2. Nazirlik əməkdaşı onun hərəkətlərinin (hərəkətsizliyinin) və ya qərarlarının maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə gətirib çıxarmasını istisna edən tədbirlər görməlidir.

3.3. Nazirlik əməkdaşı, birbaşa və ya dolayı yolla onun öz vəzifələrini yerinə yetirməsinə təsir etmək məqsədi daşıyan təkliflər olduqda, nə özü üçün, nə də digər şəxslərin xeyrinə hədiyyələr və ya imtiyazlar qəbul etməməlidir.

Qanunsuz maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, nazirlik əməkdaşı onlardan imtina etməlidir. Maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər ona ondan asılı olmayan səbəblərdən verilərsə, o, bu barədə birbaşa rəhbərinə məlumat verməli və maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər işlədiyi dövlət orqanına akt üzrə təhvil verilməlidir.

3.4. Nazirlik əməkdaşı Azərbacan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi orqanlarının digər əməkdaşlarına müəyyən qərarların qəbul edilməsi naminə hədiyyələr və ya imtiyazlar verməməlidir.

Bu tələb, həmçinin bu məsələ üzrə qərar qəbul etmək səlahiyyəti olmayan, lakin bu cür qərar qəbul etməyə təsir göstərmək üçün obyektiv imkanı olanlara da şamil olunur.

## IV. Peşəkarlıq və fərdi məsuliyyətin artırılması

4.1. Nazirlik əməkdaşı öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində və peşəkarlıq səviyyəsində yerinə yetirməyə borcludur.

4.2. Nazirlik əməkdaşı etik davranışı və öz peşəkar fəaliyyəti ilə dövlət orqanlarına hüquqi və fiziki şəxslərin inamını artırmalı və möhkəmləndirməlidir.